

■ Rahil Məmməd



## SƏN ACİZ DEYİLSƏN...

Sən aciz deyilsən, ey Vətən oğlu,
Qolunda gücün var, dizində təpər.
İnamla üz çevir günəşə doğru,
Çilənsin ruhuna zərrin şəfəqlər.

Səxavətlə vermiş bizə varını,
Vətənə borcluyuq
həm sən, həm də mən.
Sındıraq ətalət buxovlarını,
Bizdən qalibiyyət gözləyir Vətən!

Əgər boyun əysək məğlubiyyətə,
Tarix bağışlamaz bizi heç zaman.
Şimşək ol, işıq saç qara zülmətə,
Ərisin qəlbində tərəddüd, güman.

Qısqıran iblisdir bizə yağını,
İblisdən sədaqət görən olmayıb.
Qan ilə aldığı yad torpağını,
Vuruşsuz qaytarıb verən olmayıb.

Ağlı çoxdan çıxıb sərsəm başından,
"Ho" deməklə donuz çıxmaz darıdan.
Haqqa güvənirik, haqq savaşından
Qalib çıxaracaq bizi Yaradan.

Götür, kəmənd elə qətiyyətini
Uca zirvələrdən bac almaq üçün.
Vətənə sipər et öz nifrətini
Qarı düşmənindən öc almaq üçün.

Sən aciz deyilsən, ey Vətən oğlu,
Qolunda gücün var, dizində təpər.
İnamla üz çevir günəşə doğru,
Çilənsin ruhuna zərrin şəfəqlər!

*Dekabr, 2012.*

## UNUTMAQ ÇƏTİNDİR

Əzəldən belədir fələyin işi,
Birini verəndə birini vermir.
Evdə soba yanır, tavanda işıq,
İsti nəfəsinin yerini vermir.

Qarşımda xəyalın, gözündə giley,
Danışa bilmirsən, əsir vücudum.
Səni xatırladır bu evdə hər şey,
Bu evdə mən səni necə unudum?

Deyirlər, soyuqdur torpağın üzü,
Ötər bu qəm-qüssə, ötər bu aləm.
Qəlbimlə bacara bilmirəm düzü,
Çətin ki, mən səni unuda biləm.

Süfrə başında da düşünürəm mən,
Hamıya pay gəlir, sənə isə yox.
İstəkli nəvələr dərk etmir, nədən
Baba onlarladır, nənə isə yox.

Bir nisgil həmişə göynədir məni,
İşim, qələmim də düşür gözümdən.
Firavan yaşada bilmədim səni,
Xəcalət çəkirəm indi özümdən.

Düzdür, dəyişmədim səni heç kəsə,
Könlümdə özgənin yeri olmadı.
Sıxıntı içində yaşadıq nəsə,
Birini tapanda, biri olmadı.

Sən mənim əvəzsiz dayağım oldun,
Yolumda əritdin ürək yağını.
Yaxşı yadımdadır, dara düşəndə
Atdın ortalığa boyunbağını.

Zinət əşyaların satıldı bir-bir,
Dedin, qismət olar, alarıq yenə.
Sən öz taleyindən küsənmək nədir,
Barı bir tənə də vurmadın mənə.

Sən yoxsan, qəlbimi göynədir dağın,
Səbrim tükənəndə bir gəl hayıma.
Sənin əvəzinə oğul-uşağın
Nazını çəkmək də düşüb payıma.

İndi oğlumuz da işləyir axı,
Artıb qayğılarım, kaş sağ olaydın.
Həm ata, həm də ki, ana olmağı
Daha öyrənmişəm, gözlərin aydın.

Əzəldən belədir fələyin işi,
Birini verəndə birini vermir.
Evdə soba yanır, tavanda işıq,
İsti nəfəsinin yerini vermir.

## VƏTƏNDƏ HƏR ÇİÇƏK

Vətəndə hər çiçək bir nazlı gözəl,
Hər gözəl yanağı ətirli qönçə.
Bu eldə torpağı, daşı sevərəm,
Gedib özgə eldən pəri sevincə.

Ruhumu bir gözəl aldı özümdən,
Bir əsər qalmadı məndə dözümdən.
Axdı ilhamımın çeşmə gözündən
Misra düzüm-düzüm, söz incə-incə.
Vəfası yox imiş qara saçın da,
Ağarır illərin qaçhaqaçında.
Durmuşam sevinclə qəm ayrıcında,
Tale qəmə çəkir, könül sevincə.

## YANIMA TƏLƏSMƏ

Tale görüşdürdü o zaman bizi,
Bir sevgi doğuldu görüşümüzdən.
Hicran yolumuzu kəsməsin deyə
Sevgimiz sədaqət umurdu bizdən.

Çaylar zümzüməylə axırdı onda,
İsti ələnirdi qışın qarı da.
Başımız üstündə xan çinarların
Nəğmə oxuyurdu yarpaqları da.

Sənin bir kəlmənə möhtac könlümün
Arzusu gözündə qaldı o zaman.
Mən varkən eşqinə uydun sən kimin?
Başımı sis-duman aldı o zaman.

Qəlbimə vurduğun o hicran dağı
Məni göynədəndə sən güldün yəqin.
Uğursuz segimin xarabalığı
Sənin yurd yerindi, gec bildin yəqin.

Bu da bir həyatdı, nağıl deyil ki,
Bu da bir əlçatmaz ömürdü, gündü.
Qəlbimdə bir qərib, yaralı sevgi
Üzü günbatana gedirəm indi.

Üzü günbatana gedən bu yolun
Hardadır axırı, sonu?
Bilmirəm.
Bu yolun sonunda gələn həyatda
Bəlkə, görüşərik, onu bilmirəm.

Bəlkə də, yazılıb qismətimizə,
Əbədi səadət, nə bilmək olar.
Bəlkə də, yenidən can verdi bizə,
Sehirli məhəbbət, nə bilmək olar.

Son mənzil deyilən başlanğıc yola
Mənmi tez çataram, ya sən, nə bilim?
Sən ora tez çatsan, məni arzula,
Mən çatsam, yanıma tələsmə, gülüm.

## YAĞIŞLAR

Yel əsər, yarpaqlar əl çalar,
Buludlar tündləşər, alçalar.
Şimşəklər aləmə hay salar,
Torpağa bərəkət bağışlar,
Yağanda mirvari yağışlar.

Sularda ürküşər ləpələr,
Diksinər yamaclar, təpələr.
Çəmənə gül-çiçək səpələr,
Hər yanı bəzəyər, naxışlar,
Yağanda mirvari yağışlar.

Baharda bilmirəm, nə sirdi,
Yağışlar gülabdı, ətirdi.
Söyüdlər yamyaşıl çətirdi,
Damcılar nur dolu baxışlar,
Gözəldir mirvari yağışlar.

* * *

Ömür əyləncə deyil ki,
Sevinc varsa, kədər də var.
Dan yerindən zühur edən
Ümid adlı səhər də var.

Dünyanın çox üzün gördük,
Əllisini, yüzün gördük.
Namərdlərin bezin gördük,
Mərdlərimdə hünər də var.

Dəllallar baş olan yerdə,
Qismətlər çaş olan yerdə.
Ürəklər daş olan yerdə
Təəssüf də, qəhər də var.

Oğul var - pələng balası,
Qəfəslərdə tutulası.
Neyləyək ki, əl tulası,
Ulduzlara hürər də var.

Alatoran sabah deyil,
Düz söz demək günah deyil.
Şükür! Hamı məddah deyil,
Rüstəm Behrudilər də var.

Büdrədinsə, düşüb qalma,
Dərd odunda bişib qalma.
Bu nədir ki, çaşıb qalma,
Hələ bundan betər də var.

Bəsdir daha, yas saxladıq,
Göz yaşı töküb ağladıq.
Dur səngərdən, irəli çıx,
Qovğa varsa, zəfər də var!
O zəfəri qazanmağa
Qəlbimizdə təpər də var!